QANUN № 02 (376), 2026, s. 55-60

**Ataşov Vaqif Bəyalı oğlu,**
Azərbaycan Respublikası Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Hüquq şöbəsinin müdiri, dövlət qulluğunun müşaviri, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin müəllimi
Ünvan: Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyov küçəsi, 84
E-mail: vagif.atashov@gmail.com

**UOT 346.545**
**DOI: https://doi.org/10.30546/2218-9130.043.2026.537**

# MÜŞTƏRİLƏRİN ÇAŞDIRILMASI VƏ ALDADILMASI HAQSIZ RƏQABƏTİN FORMALARINDAN BİRİ KİMİ

***Açar sözlər:*** *rəqabət hüququ, haqsız rəqabət, müştərilərin çaşdırılması və aldadılması, əmtəə nişanı.*

***Ключевые слова:*** *конкурентное право, недобросовестная конкуренция, введение потребителей в заблуждение и их обман, товарный знак.*

***Keywords:*** *competition law, unfair competition, misleading and deceiving consumers, trademark.*

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1.2-ci maddəsinə əsasən bu Məcəllənin vəzifələrindən biri də mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləməkdir. Həmin Məcəllənin 4-cü maddəsinə əsasən əmlak və ya qeyri-əmlak dəyəri olan, qanunvericiliklə mülki dövriyyədən çıxarılmamış maddi və ya qeyri-maddi nemətlər mülki hüquq münasibətlərinin obyektləri ola bilərlər.

Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 1.1.23-cü maddəsinə əsasən mal dedikdə satış, mübadilə və dövriyyənin digər formaları üçün nəzərdə tutulmuş hər hansı maddi və ya qeyri-maddi əmlak başa düşülür. Həmin Məcəllənin 1.1.26-cı maddəsinə əsasən məhsul dedikdə isə satış, mübadilə və dövriyyənin digər formaları üçün nəzərdə tutulmuş hər hansı mal və ya xidmət (iş) başa düşülür.

Rəqabət qanunvericiliyi əmtəəni mülki hüquqların obyekti (o cümlədən maliyyə xidməti də daxil olmaqla iş və xidmət) kimi müəyyən edir və onun satış, mübadilə və ya dövriyyəyə başqa şəkildə buraxılması üçün nəzərdə tutulduğunu göstərir.

İqtisad elmi isə əmtəəni öz xüsusiyyətləri sayəsində hər hansı insan tələbatlarını ödəyən maddi əşya kimi müəyyən edir.

Buna görə də əmtəənin xarakteristikasının mühüm elementi onun istehlak xüsusiyyətləridir. Məhz bu xüsusiyyətlər əksər hallarda əmtəəni xarakterizə edir və onlar haqqında məlumat istehlakçı üçün ən mühüm hesab olunur. İstehlak xüsusiyyətləri müəyyən əmtəələrə tələbatın formalaşmasının əsasını təşkil edir.

Eyni cinsli əmtəə qrupları eyni istehlak xüsusiyyətlərinə malik olurlar. Məsələn, bütün soyuducular qida və digər məhsulları aşağı temperaturda saxlayaraq onların tez xarab olmasının qarşısını almaq üçün istifadə olunur, bütün qələmlər yazmaq üçün yararlıdır, bütün

modemlər rəqəmsal məlumatın analoqa və ya əksinə çevrilməsi üçün nəzərdə tutulub. Bu, eynilə avtomobillərə, kompüterlərə, geyimə və digər əmtəələrə aiddir. Buna görə də ayrı-ayrı istehsalçıların məhsullarının bazarda irəli çəkilməsi, oxşar istehlak xüsusiyyətlərinə malik eyni cinsli əmtəələr arasından həmin məhsulun fərqləndirilmədən satılması mümkün deyil.

Rəqabət şəraitində, əmtəə bazarında eyni cinsli məhsullar istehsal edən bir neçə istehsalçı arasında rəqabət mövcud olduqda, məhsulun irəli çəkilməsi və ona tələbatın formalaşdırılması konkret istehsalçı ilə əlaqələndirilmiş fərdiləşdirmə olmadan faktiki olaraq mümkün olmur.

Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 1.1.15-ci maddəsinə əsasən haqsız rəqabət dedikdə müvafiq bazarda üstünlük əldə etmək məqsədilə təsərrüfat subyektinin qanunvericiliyə və işgüzar ənənələrə zidd olan, habelə ədalətsiz üsullardan istifadə etməklə rəqib təsərrüfat subyektinə zərər vuran (vura bilən) və ya onların işgüzar nüfuzuna xələl gətirən (gətirə bilən) hərəkətləri başa düşülür.

Sözügedən Məcəllənin 19.1.4-cü maddəsinə əsasən haqsız rəqabətin formalarından biri də müştərilərin çaşdırılması və aldadılmasıdır.

Həmin Məcəllənin 23.1.4-cü maddəsinə əsasən məhsulun istehlak xassələri və digər mühüm xüsusiyyətləri barədə həqiqətə uyğun olmayan göstəricilərdən (o cümlədən fərqləndirici nişan, marka və ya işarələrdən) istifadə edilməsi və bununla əlaqədar reklamın verilməsi müştəriləri çaşdırmağa, yaxud aldatmağa yönəldilmiş hərəkət hesab edilir.

İstehsalçılar öz məhsullarını eyni cinsli əmtəələr arasından fərqləndirmək üçün fərdiləşdirmə vasitələrindən istifadə edirlər: əmtəə nişanları (xidmət nişanları) və digər orijinal işarələrdən (qablaşdırma, stilizə olunmuş etiket və s.).

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasında əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydə alınması, hüquqi mühafizəsi və istifadəsi ilə bağlı münasibətləri tənzimləyir. Sözügedən Qanunun 1-ci maddəsinə əsasən əmtəə nişanı – sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı bir uzlaşmasıdır (kombinasiyasıdır).

Əmtəə nişanı aşağıdakı funksiyaları yerinə yetirir:

• identifikasiyaedici (nişanla markalanmış məhsulu konkret istehsalçıya aid etməyə və bununla da onu eyni cinsli əmtəələr arasından fərqləndirməyə imkan verir);

• informasiyaedici (istehlakçıya onun üçün qeydiyyatdan keçdiyi əmtəə qrupunun ayrı-ayrı istehlak xüsusiyyətləri barədə məlumat verir);

• zəmanətverici (istehsalçının bazardakı məlum reputasiyasına əsaslanaraq, istehlakçı üçün məhsulun müəyyən keyfiyyət səviyyəsini təmin edir);

• məhdudlaşdırıcı (hüquq sahibinin icazəsi olmadan əmtəə nişanından digər şəxslər tərəfindən istifadəni qadağan edir).

Əmtəə nişanı məhsula olan istehlak tələbatının stimullaşdırılmasına və qorunub saxlanmasına kömək edir, onun geniş tanınmasını təmin edir, istehlakçı üçün isə məhsulun müsbət reputasiyasını formalaşdırır.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum (Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi) tərəfindən qeydə alınan əmtəə nişanlarının və coğrafi göstəricilərin hüquqi mühafizəsi bu Qanunla müəyyənləşdirilmiş qaydalara və nişanların beynəlxalq qeydiyyatına dair Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə və müqavilələrə uyğun olaraq həyata keçirilir.

Adıçəkilən Qanunun 4-cü maddəsinə əsasən əmtəə nişanı kimi sözlər, şəxsi adlar, hərflər, rəqəmlər, təsviri elementlər, əmtəələrin forması və ya onların qablaşdırılması, rənglərin və yuxarıda göstərilənlərin hər hansı uzlaşması əmtəə nişanı kimi qeydə alına bilər.

Həmin Qanunun 5-ci maddəsində əmtəə nişanını qeydə almaqdan imtina edilməsinin mütləq əsasları nəzərdə tutulmuşdur. Belə ki, aşağıda göstərilən nişanların qeydə alınmasına yol verilmir:

a) bu Qanunun 1-ci maddəsində verilmiş "əmtəə nişanı" anlayışına və 4-cü maddəsinə uyğun gəlməyən nişanlar;

b) fərqlənmə qabiliyyətinə malik olmayan əmtəə nişanları, yəni əsas amillərlə fərqlənməyən nişanlar;

c) əmtəələrin və ya xidmətlərin növünü, keyfiyyətini, miqdarını, təyinatını, dəyərini, habelə onların istehsal olunduğu yeri və tarixi və digər xüsusiyyətlərini göstərən nişanlar;

ç) şərabların və spirtli içkilərin mənşəyinə aid olmayan, lakin onları eyniləşdirməklə tərkibində coğrafi göstərici saxlayan əmtəə nişanları;

d) əmtəənin mahiyyətini əks etdirən, ona mühüm dəyər verən və texniki nailiyyət üçün zəruri olan formalar;

e) ictimai qaydaya, mənəviyyata və əxlaqa zidd olan ifadələrdən, şəxsiyyətin nüfuzdan düşməsinə səbəb ola bilən elementlərdən, din və dövlət rəmzlərindən ibarət nişanlar;

ə) uzun illər Azərbaycan Respublikasının ticarət fəaliyyətində istifadə olunan, adi dildə çox işlənən nişan və ya göstəricidən ibarət əmtəə nişanları;

f) əmtəələrin və ya xidmətlərin xüsusiyyətləri, keyfiyyəti və ya coğrafi mənşəyi ilə əlaqədar istehlakçını yanılda bilən əmtəə nişanları;

g) sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının 6ter maddəsinə uyğun olaraq qeydə alınması mümkün hesab edilməyən əmtəə nişanları;

ğ) müvafiq icra hakimiyyəti orqanının razılığı olmadan təltiflər və başqa fərqlənmə nişanları.

Bu Qanun qüvvəyə minənədək yuxarıda göstərilən nişanlar qeydə alınmışdırsa, onların qeydiyyatı ləğv olunur.

İddia sənədinin verildiyi tarixədək bu maddənin 1-ci hissəsinin "b", "c", "d" bəndlərində göstərilən, lakin istifadəsi zamanı fərqləndirmə qabiliyyətinə malik olan əmtəə nişanının qeydə alınmasından imtina edilə bilməz və ya həmin əmtəə nişanı qeydə alınmışdırsa, qeydə alınma etibarsız sayıla bilməz. Bu maddənin 1-ci hissəsinin "g" bəndinə aid nişanları tərkibində saxlayan əmtəə nişanlarının istifadəsi qadağandır.

Sözügedən Qanunun 6-cı maddəsinə əsasən əmtəə nişanını qeydə almaqdan imtina edilməsinin digər əsasları göstərilmişdir. Aşağıdakılarla eyni olan və ya onlara qarışdırılacaq dərəcədə bənzər olan nişanlar əmtəə nişanı kimi qeydə alınmır:

a) Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələrə və ya xidmətlərə aid başqa şəxsin adına qeydə əvvəl alınmış və ya qeydə alınmaq üçün iddia edilmiş əmtəə nişanları;

b) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə uyğun olaraq Azərbaycan Respublikasında daha əvvəl mühafizə edilən əmtəə nişanları;

c) bu Qanunun 7-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında mühafizə edilən geniş tanınmış əmtəə nişanları;

ç) əmtəə nişanının ilkinlik tarixindən əvvəl Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələr yaxud xidmətlər üzrə başqa şəxsin adına mühafizə olunan və ya geniş tanınmış kimi müəyyən edilən və ya istifadə zamanı istehlakçılar və istehsalçılar arasında fərqlənmə qabiliyyətinə malik olan firma adları (firma adlarının hissələri);

əmtəə nişanının ilkinlik tarixindən əvvəl Azərbaycan Respublikasında eyni və ya ox-

şar əmtəələr və ya xidmətlər üzrə başqa şəxs tərəfindən istifadə zamanı istehlakçılar və istehsalçılar arasında fərqlənmə qabiliyyətinə malik olan (tanınmış olan) əmtəə nişanları;

d) mühafizəsiz element kimi əmtəə nişanına daxil edilmiş coğrafi göstəricilər istisna olmaqla coğrafi göstəricidən istifadə hüququ olan şəxsin adına qeydə alınan və Azərbaycan Respublikasında mühafizə edilən coğrafi göstəricilər;

e) qeydə alınmış sertifikat nişanları.

Aşağıdakıları təkrar edən nişanlar əmtəə nişanı və ya onun elementi kimi qeydə alınmır:

a) Azərbaycan Respublikasında başqa şəxslərə məxsus olan sənaye nümunələri;

b) müəlliflik hüququ sahibinin və ya onun varisinin razılığı olmadan Azərbaycan Respublikasında məşhur elm, ədəbiyyat, incəsənət əsərləri, onların personajları, onlardan sitatlar və ya onların fraqmentləri;

c) tanınmış şəxslərin və onların varislərinin razılığı olmadan həmin şəxslərin soyadları, adları, təxəllüsləri və bunlardan törəyən ifadələr.

Tanınmış şəxslərin özlərinin və varislərinin olmadığı halda həmin işarələr Azərbaycan Respublikasının tarixi və mədəni sərvətidirsə, onların qeydə alınması üçün müvafiq icra hakimiyyəti orqanının icazəsi olmalıdır.

Aşağıdakılar əmtəə nişanını qeydə almaqdan imtina üçün əsas ola bilməz:

a) əmtəə nişanını qeydə almaq üçün onun barəsində iddia sənədinin verildiyi tarixədək iddiaçının həmin əmtəə nişanından istifadə etməməsi;

b) əmtəənin və ya göstərilən xidmətin xarakterik cəhətləri;

c) mənşə ölkəsində mühafizə edilən nişandan yalnız elementlərlə fərqlənən, nişanın fərqləndirici xarakterini dəyişməyən və onların eyniliyini pozmayan əmtəə nişanları.

ç) mənşə ölkəsində əmtəə nişanına dair iddia sənədinin verilməməsi, onun qeydiyyata alınmaması və ya qeydiyyatı müddətinin uzadılmaması.

Sözügedən Qanunun 17-ci maddəsinə əsasən ekspertizanın qərarına və Apellyasiya şurasının etirazla bağlı müsbət qərarına əsasən, habelə bu Qanunun 14-cü maddəsinin altıncı hissəsinə uyğun olaraq 1 ay ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum (Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi) əmtəə nişanını və coğrafi göstəricini əmtəə nişanları və coğrafi göstəricilərin Dövlət reyestrində qeydə alır.

Göründüyü kimi, əmtəə nişanına hüquqi mühafizənin verilməsinin əsası onun Dövlət reyestrində qeydiyyata alınması faktıdır.

Sözügedən Qanunun 21-ci maddəsinə əsasən əmtəə nişanının və coğrafi göstəricinin qeydiyyatı iddia sənədinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi quruma (Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə) verildiyi tarixdən 10 il müddətində qüvvədə olur. Bu müddət nişan sahibinin ərizəsinə əsasən haqq ödənilməklə məhdudiyyət qoyulmadan hər dəfə 10 il müddətinə uzadıla bilər.

Qeydiyyatın qüvvədə olma müddəti qurtardıqdan sonra onun uzadılması üçün əmtəə nişanının sahibinə və coğrafi göstərici barədə şəhadətnamənin sahibinə əlavə haqq ödəmək şərti ilə 6 ay möhlət verilir.

Qeydiyyat müddətinin uzadılmasına dair məlumat reyestrə və şəhadətnaməyə daxil edilir və rəsmi bülletendə dərc olunur.

Əmtəə nişanına müstəsna hüquq, əmtəə nişanının qeydiyyatdan keçirildiyi əmtəələrin, işlərin və ya xidmətlərin fərdiləşdirilməsi məqsədilə, xüsusilə əmtəə nişanının aşağıdakı hallarda yerləşdirilməsi yolu ilə həyata keçirilə bilər:

1. ölkə ərazisində istehsal olunan, satışa təklif edilən, satılan, sərgilərdə və yarmarkalarda nümayiş etdirilən və ya başqa üsullarla mülki dövriyyəyə buraxılan, yaxud bu məqsədlə saxlanılan, daşınan və ya ölkə ərazisinə idxal edilən əmtəələrin üzərində, o cümlədən etiketlərdə və qablaşdırmada;

2. işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi zamanı;

3. əmtəələrin mülki dövriyyəyə buraxılması ilə bağlı sənədlərdə;

4. əmtəələrin satışı, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi barədə təkliflərdə, habelə elanlarda, lövhələrdə və reklamda;

5. internet şəbəkəsində, o cümlədən domen adında və ünvanlaşdırmanın digər üsullarında.

Hüquq sahibi əmtəə nişanına dair müstəsna hüquqları əmtəə nişanına dair müstəsna hüququn özgəninkiləşdirilməsi haqqında müqavilə əsasında başqa şəxsə verə, habelə lisenziya müqaviləsi əsasında əmtəə nişanından istifadə hüququnu təqdim edə bilər.

Belə ki, sözügedən Qanunun 26-cı maddəsinə əsasən əmtəə nişanından istifadənin onun sahibi və ya bu Qanunun  28-ci maddəsinə uyğun olaraq lisenziya müqaviləsi əsasında istifadə hüququ olan şəxs tərəfindən həyata keçirilməsi əmtəə nişanından istifadə sayılır. Əmtəə istehsalçısının və ya xidmət göstərənin əmtəə nişanı ilə yanaşı olaraq, aralarındakı müqaviləyə uyğun vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər özlərinə məxsus əmtəə nişanından da istifadə edə bilərlər.

Həmin Qanunun 28-ci maddəsinə əsasən əmtəə nişanının sahibi əmtəə nişanından istifadə hüququnu lisenziya müqaviləsi, əmtəə nişanına dair hüququ isə müqavilə əsasında həmin nişanın aid edildiyi əmtəələrin və xidmətlərin hamısı və ya bir hissəsi barədə başqa şəxsə verə bilər.

Əmtəə nişanına hüquqi mühafizənin verilməsi, mülki qanunvericiliklə müəyyən edilmiş əmtəə nişanının qeydiyyatı qaydasının pozulması hallarında, habelə əmtəə nişanının dövlət qeydiyyatı ilə bağlı hüquq sahibinin hərəkətlərinin müəyyən edilmiş qaydada hüquqdan sui-istifadə və ya haqsız rəqabət kimi tanındığı hallarda mübahisələndirilə və etibarsız hesab edilə bilər.

Heç kəs hüquq sahibinin icazəsi olmadan, əmtəə nişanının qeydiyyatdan keçirildiyi əmtəələrin fərdiləşdirilməsi üçün nəzərdə tutulmuş əmtəələrə və ya eyni cinsli əmtəələrə münasibətdə, qarışıqlıq ehtimalı yaradan, onun əmtəə nişanına oxşar işarələrdən istifadə edə bilməz.

Müstəsna hüquq məhz bundan ibarətdir, yəni onun sahibinin intellektual fəaliyyətin nəticəsindən istifadə etmək və ona sərəncam vermək üzrə inhisar hüququ və bununla müvafiq olaraq digər şəxslərin hüquq sahibinin razılığı olmadan belə obyektdən istifadə etməkdən çəkinmək vəzifəsi.

Müstəsna hüququn pozulmasından fərqli olaraq, haqsız rəqabət intellektual fəaliyyətin nəticələrinin qanunsuz istifadəsi ilə əmtəənin satılması, dəyişdirilməsi və ya başqa şəkildə dövriyyəyə buraxılması formasında ifadə olunur ki, bunun nəticəsində pozuntu törədən şəxs rəqabət üstünlükləri əldə edir, müstəsna hüquqların sahibi isə zərərə məruz qalır.

Bu zaman zərər yalnız əmtəə nişanının sahibinə vurulmur – mənfi nəticələr istehlakçılara da təsir göstərir: onlar məhsulun keyfiyyəti və istehlak xüsusiyyətləri barədə çaşdırılırlar. Belə ki, saxta məhsul, bir qayda olaraq, “orijinal” məhsulla tanış olan istehlakçının gözləntilərini doğrultmur.

Qeyd etmək vacibdir ki, məhsulun istehlak xassələri və digər mühüm xüsusiyyətləri barədə həqiqətə uyğun olmayan göstəricilərdən (o cümlədən fərqləndirici nişan, marka və ya işarələrdən) istifadə edilməklə əmtəənin dövriyyəyə buraxılması faktı haqsız rəqabətin müştərilərin çaşdırılması və aldadılması formasının tövsif edilməsi üçün məcburi şərtdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi // Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. [Elektron resurs] / URL: https://e-qanun.az/framework/46944
2. Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi / Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. [Elektron resurs] / URL: https://e-qanun.az/framework/56187
3. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunu. [Elektron resurs] / URL: https://e-qanun.az/framework/3293

**Аташов Вагиф Байали оглу,**
начальник юридического отдела Государственного агентства по
вопросам антимонопольной политики и надзора за потребительским рынком
при Президенте Республики Азербайджан, советник государственной службы,
преподаватель Юридического факультета Бакинского государственного университета

**ВВЕДЕНИЕ ПОТРЕБИТЕЛЕЙ В ЗАБЛУЖДЕНИЕ И ИХ ОБМАН КАК ОДНА ИЗ ФОРМ НЕДОБРОСОВЕСТНОЙ КОНКУРЕНЦИИ**

**РЕЗЮМЕ**

Согласно статье 19.1.4 Кодекса о конкуренции Азербайджанской Республики одной из форм недобросовестной конкуренции является введение потребителей в заблуждение и их обман. В соответствии со статьёй 23.1.4 указанного Кодекса использование недостоверных сведений о потребительских свойствах продукции и иных её существенных характеристиках (в том числе отличительных знаков, бренда или обозначений), а также распространение в связи с этим рекламы считается действием, направленным на введение потребителей в заблуждение либо их обман. В статье данное явление рассматривается как одна из форм недобросовестной конкуренции, при этом особое внимание уделяется использованию недостоверной информации о потребительских свойствах продукции и иных её существенных характеристиках, включая отличительные знаки, бренд и иные обозначения.

**Atashov Vagif Beyaly,**
Lecturer, Faculty of Law, Baku State University, Head of the Legal Department,
State Agency for Antimonopoly and Consumer Market Control under the
President of the Republic of Azerbaijan, Civil Service Advisor

**MISLEADING AND DECEIVING CONSUMERS AS A FORM OF UNFAIR COMPETITION**

**SUMMARY**

Pursuant to Article 19.1.4 of the Competition Code of the Republic of Azerbaijan, one of the forms of unfair competition is misleading and deceiving consumers. According to Article 23.1.4 of the said Code, the use of false information regarding the consumer properties and other essential characteristics of a product (including distinctive signs, brand names, or marks), as well as the dissemination of advertising in this regard, is considered an act aimed at misleading or deceiving consumers. The article examines "Misleading and Deceiving Consumers" as one of the forms of unfair competition and focuses on the use of false information concerning the consumer properties and other essential characteristics of a product (including distinctive signs, brand names, or marks).

**Redaksiyaya daxilolma tarixi: 16.02.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: göndərilməyib**
**Çapa qəbul olunma tarixi: 20.02.2026**